Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 172 (1300) 20 sentyabr - 21 sentyabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# Tarixlərin şahidi Şamaxı

**Azərbaycanın bölgələrindən biri olan Şamaxı özünün bir ərazi vahidi kimi tarixin müxtəlif mərhələlərində əldə etdiyi uğurlarla həmişə insanların yaddaşında qalıb.**

> **"...Görülən işlər ictimaiyyəti daha da ruhlandırır, böyük işlərə sövq edir ki, biz ölkəmizi daha da gücləndirək, daha da zənginləşdirək, insanlar rifah, sülh, təhlükəsizlik içərisində daha da yaxşı yaşasınlar və bundan sonra da dinamik inkişaf təmin edilsin".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

Şamaxıda günbəgün sürətlənən inkişaf, diqqət çəkən quruculuq, abadlıq işləri həm effektliliyinə, həm də əhatə dairəsinə görə insanların könlünü xoş edir. Şamaxı həm bir rayon mərkəzi kimi, həm də kəndləri ilə birlikdə bu gün Azərbaycanın inkişaf etməkdə olan rayonları ilə bir sırada dayanır. Təbii ki, bu işdə də regionların inkişafına dair Dövlət Proqramının tələb və icra mexanizmi əsas yer tutur. Yəni Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı müvafiq sərəncamla həyata keçirilən regionların inkişafına dair Dövlət Proqramı Şamaxıda da vacib, həm də üzərində nəzarət olan fəaliyyət prinsipləri kimi gündəmdə qalır.

Bax, bu mənada həm ötən illərin, həm də bu ilin birinci rübünün yekunlarına diqqət yetirəndə məlum olur ki, burda həyat hər gün dəyişir, hər gün yeniləşir və inkişafın sürəti, bu sürətli inkişafın ortaya qoyduğu nəticələr günbəgün artıb şaxələnir.

Rayonda 2016-cı ilin arxada qalan ayları ərzində görülən sosial-iqtisadi inkişafa nəzər salanda sevindirici faktlar üzə çıxır.

Əgər Şamaxı rayon icra hakimiyyətinin başçısı Asif Ağayevin hesabatına diqqət yetirsək görərik ki, arxada qalan müddət ərzində qarşıya qoyulmuş vəzifələrin icrası əsasən təmin edilmişdir. Cari ildə rayonda 34.4 milyon manat dəyərində ümumi məhsul buraxılışı olmuşdur. Bu rəqəm keçən ilin müvafiq dövrü ilə müqayisədə 0.2 milyon manat və yaxud 0.5 faiz çoxdur. Qeyd olunan müddət ərzində rayonda sənaye məhsulunun həcmi 1.4 milyon manat olmuşdur. Həmçinin üç ayda əsas kapitala yönəldilən investisiyaların həcmi 1.8 milyon manat, tikinti-quraşdırma işlərinin həcmi 1.7 milyon manat təşkil etmişdir. Ötən üç ayda pərakəndə əmtəə dövriyyəsi 59.3 milyon, əhaliyə göstərilən pullu xidmətlərin həcmi 11.4 milyon manat olmuşdur. 2016-ci ilin üç ayında rayon üzrə 445 daimi iş yeri açılmışdır. 2003-cü ildən indiyə kimi rayon üzrə 12585 iş yeri yaradılmışdır ki, bunun da 9914-ü daimi iş yeridir.



A.Ağayev qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 yanvar 2016-cı il tarixdə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında yerli icra strukturlarına verilmiş mühüm tapşırıqların icrasına hər yerdə olduğu kimi Şamaxı rayonunda da başlanılmışdır. Ərazidə iqtisadi durumun yaxşılaşdırılması, sahibkarlığın inkişaf etdirilməsi, əhalinin məşğulluq səviyyəsinin artırılması, kənd təsərrüfatında islahatların genişləndirilməsi yeni iş yerlərinin yaradılması, yeni istehsal və emal müəssisələrinin açılması və sərmayələrin cəlb edilməsi ilə bağlı tapşırıqlarının icrasını təmin etmək məqsədilə rayon icra hakimiyyəti başçısının sərəncamı ilə xüsusi qərargah yaradılmışdır. Qərargaha icra hakimiyyəti sisteminə daxil olan, ərazinin sosial-iqtisadi inkişafına təsir edə bilən qurumların rəhbərləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri daxil edilmişdir. Rayon İcra Hakimiyyətinin növbətçi otağında qaynar xətt xidməti təşkil olunmuşdur.

Şamaxı Rayon İcra Hakimiyyətində rayonda fəaliyyət göstərən sahibkarlarla işgüzar görüşün keçirilməsi də artıq ənənə halına çevrilmişdir. Həmin görüşlərdə ilk növbədə sahibkarların işləri, onların fəaliyyətinə əngəl törədən və ya mane olan amillərin olub-olmaması, onları narahat edən məsələlər diqqət mərkəzində olmuşdur. Bundan əlavə rayonda yeni müəssisələrin yaradılması və səmərəli layihələrin həyata keçirilməsi geniş müzakirə edilmişdir.

Şamaxıda olarkən Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevin rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüş və rayonda kənd təsərrüfatının, yüngül sənayenin və turizmin inkişaf etdirilməsi üçün hər bir şəraitin olduğunu vurğulamışdır. Və onu da vurğulamışdır ki, bundan



sonra da sahibkarlara dövlət tərəfindən hər cür dəstək veriləcək.

Rayon rəhbərliyinin bildirdiyinə görə, əhalinin məşğulluq səviyyəsinin artırılması, yeni iş yerlərinin açılması məqsədilə 2016-cı ilin fevral ayının 1-dən başlayaraq rayon İcra Hakimiyyəti və digər dövlət qurumları tərəfindən yeni açılmış iş yerlərinə qəbul başlanılmışdır: "Belə ki, bu günə kimi RİH tərəfindən 90 nəfər rayon sakini Kommunal Təsərrüfatı Çoxsahəli İstehsalat Müəssisəsinə işə götürülmüş, 91 nəfər isə rayonda fəaliyyət göstərən "Azərtikintiquraşdırmaservis-23" tikinti müəssisəsi tərəfindən aprel ayının 1-dən işə qəbul olunmuşlar. Bundan əlavə 9 saylı Yol İstismar Sahəsi tərəfindən 31 nəfər, rayon Sukanal İdarəsi tərəfindən 22 nəfər, SOCAR üzrə 122 nəfər, Ekologiya və Təbii Sərvətlər üzrə 18 nəfər, rayon Birləşmiş Qazanxana və İstilik Şəbəkələri sahəsinə 2 nəfər, rayon Suvarma Sistemləri idarəsinə 7 nəfər və Şamaxı Elektrik Şəbəkəsinə 12 nəfər işə qəbul edilmişdir".

Biz rayonda olarkən öyrəndik ki, keçirilən hesabat yığıncağında kənd təsərrüfatının durumuna toxunan İcra başçısı rayon iqtisadiyyatında kənd təsərrüfatının əsas yer tutduğunu bildirib: "Görülən tədbirlər nəticəsində bu ilin üç ayı ərzində bu sahədə 7.6 mln. manatlıq məhsul istehsal edilmişdir. 2016-ci ilin məhsulu üçün payızlıq əkin başa çatdırılmışdır. Hazırda rayonun kənd və qəsəbələrində yazlıq əkin kampaniyası sürətlə davam etdirilir. Məlum olduğu kimi, keçən əsrin 70-80-ci illərində Şamaxı Azərbaycanın ən böyük üzümçülük rayonlarından birinə çevrilmişdi. Hazırda bu sahənin inkişafına xüsusi diqqət göstərilir. Bu baxımdan dövlətimizin başçısının tapşırığı ilə hazırlanan və qəbul edilən "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın bu sahənin yenidən dirçəldilməsində mühüm rolu olmuşdur. Hazırda rayonumuzda üzümçülük yeni inkişaf dövrünü yaşayır. Fermerlərimiz tərəfindən ötən müddət ərzində yeni üzümlüklər salınaraq bu gəlirli sahə 1632 hektara çatdırılmışdır".

**(ardı gələn sayımızda)**

***Ceyhun Rüstəmov***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ